ədalət.-2017.-7 noyabr.-S.8.



Əjdər Qiyaslı
İqtisadçı alim, şair

## MALİKDİR MÖTƏBƏR, MƏTİN TƏMƏLƏ

*"525-ci qəzet"in 25 illik yubileyinə ithaf edirəm*

Atalar söylədi biz nəsillərə,
Gördüyün bir işə yaxşı əməl et.
Gözəl töhfə oldu bizim ellərə,
525-ci qəzet.

O elə qəzetdi, məramı haqdır;
Dəryada məşəli bizə andırır.
Doğru yolumuzda nurlu çıraqdır,
Könül dünyamızı ziyalandırır.

Çətin sınaqlarda deyir sözünü,
Onda dözümü var körpüdə tağın.
Haqqa, ədalətə tutub üzünü,
Çəkir keşiyini ana torpağın!

Məkirli düşmənin bağrını dəlir,
Qaranlıq gecədə işıq yandırır.
Xalqa arxalanır, köməyə gəlir;
Ata yurdumuzu işıqlandırır.

Yenilməz qayadı saf xilqətində,
Yolunu azmayır dumanda, çəndə.
Başını dik tutur darda, çətində;
Mübariz qəzetdi ana Vətəndə.

25 il yol gedib ömür karvanı,
Daha çox uğurlar öndədir hələ.
Rəşad Məciddir müdrik sarvanı,
Malikdir mötəbər, mətin təmələ.

## BAYRAĞIM

Başının üstündə nurlanır səma,
Dalğalan, dalğalan azad bayrağım.
Könül istəyimdir qovuşur kama,
Dalğalan, dalğalan azad bayrağım.

Buludlar hüsnünə həsədlə baxır,
Çiçəklər sevincdən sırqalar taxır.
Könlünə şəlalə həvəslə axır,
Dalğalan, dalğalan azad bayrağım.

Ana laylasında səni ananda,
Hüsnünə vurulur şəfəqli dan da.
Bir aləm yaranır dalğalananda,
Dalğalan, dalğalan azad bayrağım.

Müstəqil ölkəmə yenidən gəldin,
Yaşadın inamla, yenə dikəldin.
Əvvəlki andan da daha yüksəldin,
Dalğalan, dalğalan azad bayrağım.

Tanrının vergisi üç rəngin var,
Sinəndə ulduzun həmişə parlar.
Səmada olmusan nurlu Aya yar,
Dalğalan, dalğalan azad bayrağım.
Aləmə bəllidir şöhrətin, şanın;
Rəngini almısan şəfəqli danın.
Başının tacısan Azərbaycanın,
Dalğalan, dalğalan azad bayrağım.

## QAYA, SƏN PARÇALANMA

Bütövlükdür xilqətin,
Qaya, sən parçalanma.
Yaranmısan sən mətin
Qaya, sən parçalanma.

Qaya olubdur adın,
Bilir yaxının, yadın.
Safdı kökün-soyadın,
Qaya sən parçalanma.

Səndən dözüm almışıq,
Çoxlu zəfər çalmışıq.
Dağ kimi ucalmışıq,
Qaya, sən parçalanma.

Yüz illər parçalandıq,
Çox odlara qalandıq,
Nə yaxşı ki, oyandıq,
Qaya, sən parçalanma.

Min fəlakət olsa da,
Ömrün yaşa dolsa da.
Tanrıdan gəlir səda:
Qaya, sən parçalanma.

Birliyimiz mətindi,
Yenilməzik biz indi.
Ucalıq qismətindi,
Qaya, sən parçalanma.

Qızıl şəfəqli danıq,
Milyonlara biz canıq.
Bütöv Azərbaycanıq,
Qaya, sən parçalanma.

## YÜZ ÖLÇÜB BİR BİÇƏNDƏ

Haqq yolunu taparsan,
Yüz ölçüb bir biçəndə.
Çox savaba batarsan,
Yüz ölçüb bir biçəndə.

Ədaləti danmazsan,
Deyən olmaz qanmazsan.
Öz səhvinə yanmazsan,
Yüz ölçüb bir biçəndə.

Barlı ağac dərərsən,
Şirin sovqat verərsən.
Xeyir işlər görərsən,
Yüz ölçüb bir biçəndə.

Bəxtin uğur gətirər,
Öz kamına yetirər.
Dağ da çiçək bitirər,
Yüz ölçüb bir biçəndə.

Səhralar da güllənər,
Sarı sünbül tellənər.
Tar da simdə dillənər,
Yüz ölçüb bir biçəndə.

Yatan bəxtin oyanar,
Çılçırağın gur yanar.
Ömrün nura boyanar,
Yüz ölçüb bir biçəndə.
Düşməzsən çovğun qara,
Nə çətinə, nə dara.
Bağın dolar bol bara,
Yüz ölçüb bir biçəndə.

Bütün ömrün boyunca,
Kam alarsan doyunca.
Başın olar çox uca,
Yüz ölçüb bir biçəndə.

## Hər şey gəldi gedərdi

Nə görünür gözünə,
Hər şey gəldi gedərdi.
Dərd elə özünə,
Hər şey gəldi gedərdi.

Hərə çapır öz atın,
Ömür alınmır satın.
Qanunudur həyatın,
Hər şey gəldi gedərdi.

Dağın laləsi, gülü;
Qalır boynu bükülü.
Ya bağlı, ya tökülü,
Hər şey gəldi gedərdi.

Dünya belə dolandı;
Boşalandı, dolandı.
Hamı deyir olandı:
Hər şey gəldi gedərdi.

Tanrının işi haqdı,
Fikir etmək nahaqdı.
Elə bil ki, qonaqdı,
Hər şey gəldi gedərdi.

Ömür, gün də yalandı;
Bizi yola salandı.
Təkcə dünya qalandı,
Hər şey gəldi gedərdi.